AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

BAKI DÖVLƏT UNİVERSİTETİNİN

# ŞƏRQŞÜNASLIQ

JURNALI

---

JOURNAL OF

# ORIENTAL STUDIES

OF BAKU STATE UNIVERSITY

1/2024

**Bakı – 2024**

*Azərbaycan Respublikası Ədliyyə Nazirliyində*
*21 oktyabr 2021-ci il tarixində qeydiyyatdan keçmişdir*
*(Mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi 4361)*

*Baş redaktor:*
***akademik* Rafael Hüseynov**

## Redaksiya heyəti:

**BELLİNGERİ GİAMPİERO**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, professor;
Venesiya Ka Foskari Universiteti, İtaliya
**CƏLİLOV OQTAY**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**CHALİSOVA NATALİYA**
Filologiya elmləri doktoru, professor;
Rusiya Dövlət Humanitar Universiteti, Rusiya
**EKİCİ METİN**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, professor;
Ege Universiteti, Türk Dünyası Araşdırmaları İnstitutu, Türkiyə
**FİLİPPOV ALEKSANDR**
Filologiya elmləri doktoru, professor;
Sankt-Peterburq Dövlət Universiteti, Rusiya
**XƏNDAN AYDAN**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**JAVADİ HASAN**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, professor;
Kaliforniya Universiteti, ABŞ
**KAZIMOV MEHDİ**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QARADAĞLI VÜQAR**
Filologiya elmləri doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QASIMOVA AİDƏ**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**LO MBAYE**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, professor;
Dyuk Universiteti, ABŞ
**MANSOOR ASMA**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, professor;
İslamabad Beynəlxalq İslam Universiteti, Pakistan
**MƏMMƏDOVA ƏSMƏTXANIM**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**NİKOLAYEVA MARİYA**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Rusiya Elmlər Akademiyası, Rusiya
**OCHİLOV OZODCON**
Filologiya elmləri üzrə fəlsəfə doktoru;
Özbəkistan Dövlət Şərqşünaslıq Universiteti, Özbəkistan
**RƏSULOV ƏSGƏR**
Filologiya elmləri doktoru, professor;
Milli Arxiv İdarəsi, Azərbaycan
**RÜSTƏMOV RÜFƏT**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**SUFİZODA SHODİMAXAMMAD**
Filologiya elmləri doktoru, professor;
Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan
**TOBİA STEFAN**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, professor;
Strasburq Universiteti, Fransa

Bakı Dövlət Universitetinin **ŞƏRQŞÜNASLIQ** jurnalı/Journal of **ORIENTAL STUDIES** of Baku State University, № 1 (4), 2024. – 168 səh. Bakı, BDU, 2024.

© Bakı Dövlət Universiteti, 2024

# OXUYACAQLARINIZ



## ƏDƏBİYYATŞÜNASLIQ

*DƏMİROVA Cəmilə*
**ƏRƏB NƏSRİNDƏ ŞÜUBİLİKLƏ BAĞLI MÜLAHİZƏLƏR**
Considerations on shu`ubi in arabic prose **11**

*HÜSEYNOVA Dilbər*
**ƏRƏB ƏDƏBİYYATINDA MƏRSİYƏ JANRININ TARİXİ İNKİŞAFI VƏ ONUN PARLAQ NÜMUNƏLƏRİ**
The historical development of the genre of lamentation in Arabic literature and its bright examples **20**

*HÜSEYNOV Rafael*
**HAJI ZEYNALABDIN SHIRVANI'S LIFE COMPLETED IN TRAVEL**
Hacı Zeynalabdin Şirvaninin səyahətdə tamamlanan ömrü **28**

*KARAHAN Mədinə*
**ƏHMƏD BƏY AĞAOĞLUNUN "SƏRBƏST İNSANLAR ÖLKƏSİNDƏ" ƏSƏRİNDƏ FƏRD VƏ CƏMİYYƏT MÜNASİBƏTLƏRİ**
The Relationship between the Individual and Society in Ahmed Beg Aghaoglu's "In the Land of Free People" **61**

*ƏLİYEVA Nərmin*
**THE CONCEPT OF A UNIFIED HOMELAND IN THE POETRY OF MOHAMMAD-HOSSEIN SHAHRIAR**
Məhəmmədhüseyn Şəhriyar yaradıcılığında vahid vətən konsepsiyası **67**

*AĞABƏYLİ Vüsalə*
**XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATINDA YENİ QADIN OBRAZLARI VƏ ONUN ŞƏRQ ƏNƏNƏSİ İLƏ ƏLAQƏSİ**
New female images 20th sentury Azerbaijani literature and their relationship with Eastern literary tradition **74**

## DİLÇİLİK

*HÜSEYNOV Rafael*
**GÖRKƏMLİ ALİMİN NƏŞRİ BAŞ TUTMAMIŞ, MƏZMUNU GƏRƏKLİLİYİNİ İTİRMƏMİŞ, QAYIDIŞI FAYDALI TARİXİ ARAŞDIRMASI**
A Historical Study by a Prominent Scholar: Unpublished, Still Relevant by Content and Worth Revisiting **87**

*CƏFƏR Əkrəm*
**QƏDİM TÜRK DİLLƏRİ ABİDƏLƏRİNDƏ FEİLİ SİFƏT VƏ FEİLİ BAĞLAMALAR**
Verbal Adjectives and Verbal Conjunctions in the Monuments of the Ancient Turkish Languages **99**

# TƏRCÜMƏ NƏZƏRİYYƏSİ VƏ ÇEVİRMƏLƏR

*ASLAN Aygün*
**MƏHƏMMƏD İQBALIN URDU DİLİNDƏ OLAN ŞEİRLƏRİNDƏN SEÇMƏLƏR**
Selections From Muhammad Iqbal's Poems in Urdu **145**

# TƏQDİMATLAR, RƏYLƏR, DƏYƏRLƏNDİRMƏLƏR

*NURİYEVA Kəmalə*
**ABBASQULU AĞA BAKIXANOVUN "TƏHZİBİ-ƏXLAQ" ƏSƏRİNİN TƏKMİLLƏŞDİRİLMİŞ VƏ "MİRATU-L-CƏMAL" ƏSƏRİNİN İLK TAM NƏŞRİ HAQQINDA**
On the Enhanced Edition of Abbasgulu Agha Bakikhanov's "Tahzibi-Akhlag" and the First Complete Publication of "Miratu-l-Jamal" **159**

**APA7 qaynaqgöstərmə təlimatı** **164**

**Nəşrə dair tələblər** **166**

**Publication requirements** **167**

# ƏDƏBİYYATŞÜNASLIQ



**UOT 821.512.162**
**821.5**

# XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATINDA YENİ QADIN OBRAZLARI VƏ ONUN ŞƏRQ ƏDƏBİ ƏNƏNƏSİ İLƏ ƏLAQƏSİ

**VÜSALƏ AĞABƏYLİ***

***Xülasə***

*Bu məqalədə XX əsr Azərbaycan ədəbiyyatında formalaşan yeni qadın obrazları və onların Şərq ədəbi ənənəsi ilə ideya-estetik əlaqələri araşdırılır. Tədqiqatda qadın obrazının klassik Şərq ədəbiyyatında mövcud olan idealizə olunmuş və passiv modeldən fərqli olaraq, XX əsrdə sosial fəallıq qazanan, müstəqil düşünən və cəmiyyət həyatında aktiv rol oynayan yeni tipə çevrilməsi təhlil edilir. Qadın kimliyinin bu transformasiyası maarifçilik ideyaları, ictimai-siyasi dəyişikliklər və Qərb təsirləri kontekstində izah olunur, eyni zamanda, bu prosesin milli-mədəni köklərlə bağlılığı göstərilir.*

*Məqalədə Y. V. Çəmənzəminli, C. Cabbarlı, H. Cavid və Həmidə Cavanşirin yaradıcılığı əsasında qadın obrazlarının bədii təcəssümü müqayisəli şəkildə araşdırılır. Müəlliflərin əsərlərində qadının azadlıq, təhsil, mənəvi seçim və şəxsiyyət kimi formalaşması məsələləri ön plana çəkilir. Araşdırma nəticəsində müəyyən edilir ki, XX əsr Azərbaycan ədəbiyyatında yeni qadın obrazı ənənədən tam qopmadan, Şərq ədəbi irsi ilə dialoq şəraitində inkişaf etmiş, ənənə və yenilik sintezində formalaşmışdır. Bu baxımdan məqalə qadın obrazının təkamülünü milli və ümumbəşəri kontekstdə dəyərləndirməyə imkan yaradır.*

**Açar sözlər:** *qadın obrazı, XX əsr Azərbaycan ədəbiyyatı, Şərq ədəbi ənənəsi, qadın azadlığı və kimlik, gender tədqiqatları*

## Giriş

XX əsr Azərbaycan ədəbiyyatı ictimai-siyasi dəyişikliklərin, milli özünüdərk proseslərinin və mədəni transformasiyaların intensivləşdiyi bir dövr kimi səciyyələnir. Bu dövrdə ədəbiyyat yalnız estetik hadisə kimi deyil, həm də ideoloji və sosial düşüncənin ifadə vasitəsi kimi çıxış edərək, cəmiyyətin əsas problemlərinə, xüsusilə də qadının cəmiyyətdəki mövqeyinə yeni baxış formalaşdırmışdır. Ənənəvi Şərq dünyagörüşündə daha çox passiv, idealizə olunmuş və məhdud sosial funksiyalar çərçivəsində təqdim edilən qadın obrazı XX əsr Azərbaycan ədəbiyyatında mühüm transformasiyaya uğrayaraq fəal, düşünən, seçim edən və sosial proseslərə təsir göstərən subyekt kimi təqdim olunmağa başlanmışdır.

Bu dəyişikliklər bir tərəfdən Qərb modernizminin təsiri, digər tərəfdən isə milli maarifçilik ideyalarının güclənməsi ilə bağlıdır. Lakin qadın obrazının yenilənməsi prosesi tamamilə ənənədən qopma deyil, əksinə, Şərq ədəbi-mədəni irsi ilə mürəkkəb və çoxqatlı bir dialoq şəraitində formalaşmışdır. Klassik Şərq poeziyasında qadının daha çox estetik obyekt kimi təqdim olunmasına baxmayaraq, bu ənənə daxilində də müəyyən mənəvi dəyərlər, etik prinsiplər və simvolik məna qatları mövcud olmuşdur ki, XX əsr yazıçıları bu irsdən yeni məzmun və forma ilə bəhrələnmişlər.

* Filologiya üzrə fəlsəfə doktoru, dosent; Azərbaycan Dillər Universiteti; vusale.agabeyli@gmail.com;
ORCID ID: https://orcid.org/0000-0003-1560-028X

Məhz bu baxımdan XX əsr Azərbaycan ədəbiyyatında qadın obrazlarının təhlili yalnız yeni tip qəhrəmanların təsviri ilə məhdudlaşmır, həm də onların Şərq ədəbi ənənəsi ilə ideya-estetik əlaqələrinin araşdırılmasını zəruri edir. Bu məqalədə Y. V. Çəmənzəminli, C. Cabbarlı, H. Cavid və Həmidə Cavanşirin yaradıcılığı əsasında qadın obrazlarının formalaşma xüsusiyyətləri, onların ənənəvi modellərlə münasibəti və yeni qadın kimliyinin bədii ifadə vasitələri təhlil ediləcəkdir. Məqalənin əsas məqsədi Azərbaycan ədəbiyyatında qadın obrazının təkamülünü Şərq və müasirlik kontekstində sistemli şəkildə araşdırmaqdır.

## 1. Şərq ədəbi ənənəsində qadın obrazı: klassik model və onun xüsusiyyətləri

Şərq ədəbi ənənəsində qadın obrazı əsasən klassik poeziya və nəsr nümunələrində formalaşaraq uzun müddət sabit estetik və ideoloji çərçivələr daxilində təqdim olunmuşdur. Bu ənənədə qadın çox vaxt idealizə olunmuş gözəllik simvolu, sevgi və ilham mənbəyi kimi təsvir edilir, onun fərdi xüsusiyyətlərindən daha çox zahiri cazibəsi və mənəvi paklığı ön plana çəkilir. Klassik Şərq poeziyasında qadın obrazı əksər hallarda passiv mövqedə dayanır, hadisələrin mərkəzində olsa da, aktiv qərarverici subyekt kimi deyil, daha çox kişi qəhrəmanın duyğularını və daxili aləmini açmaq üçün vasitə rolunda çıxış edir. Bu modeldə qadının səssizliyi, itaətkarlığı və əlçatmazlığı estetik ideal kimi təqdim olunur.

Bununla yanaşı, Şərq ədəbi ənənəsində qadın obrazı yalnız məhdud çərçivədə təqdim olunmur, eyni zamanda, dərin simvolik və mənəvi məna daşıyır. Qadın bəzən ilahi gözəlliyin, saf sevginin və mənəvi kamilliyin rəmzi kimi çıxış edir, xüsusilə sufi ədəbiyyatında bu obraz daha metaforik məna qazanır. Beləliklə, qadın obrazı bir tərəfdən real sosial mövqedən uzaq, idealizə olunmuş estetik model kimi təqdim olunsa da, digər tərəfdən yüksək mənəvi dəyərlərin ifadəçisi kimi çıxış edir. Məhz bu ikili xarakter sonrakı dövrlərdə, xüsusilə XX əsr Azərbaycan ədəbiyyatında qadın obrazının transformasiyası üçün əsas zəmin yaratmışdır.

## 2. Y. V. Çəmənzəminli yaradıcılığında yeni qadın obrazı və milli-mənəvi dəyərlər

Azərbaycan ədəbiyyatı ənənəvi olaraq gender rollarına daha mühafizəkar yanaşma ilə səciyyələnsə də, XX əsrdə və XXI əsrin üç onilə yaxın dövründə unikal mədəni kontekstdə tədricən gender kimliyi ilə bağlı müzakirələrin açıldığının şahidi oluruq. C. Cabbarlı, Y. V. Çəmənzəminli, H. Cavid və başqaları kimi, bir çox azərbaycanlı müəlliflər ənənəvi dəyərlər arasındakı gərginliyi və müasirliyin gender rollarına təsirini istiqamətləndirmişlər.

Y. V. Çəmənzəminlinin fikrincə, Azərbaycan xalqı qadına hörmət edir, azərbaycanlılar öz qadınlarını Tanrı səviyyəsinə qaldırırlar. Lakin o, qadının bu ilahiliyini, işığını qara bulud kimi gizlətmək istəyən azərbaycanlı kişilərin də az olmadığını yazır (Çəmənzəminli, 2005: 418).

Y. V. Çəmənzəminli tərəqqi çağında qadını döyməyi, alçaltmağı sivil insanlıqdan kənar, qəbuledilməz hesab edirdi. Onun "Arvadlarımızın halı", "Qanlı göz yaşları", "Arvadlarımızın məişətindən", "Müsəlman arvadının sərgüzəştləri", "Qumarbazın arvadı", "Ana və analıq", "Toy" və s. hekayələrində Azərbaycan qadınının keşməkeşli həyat tərzi, yaşadıqları, üzləşdiyi problemlər təsvir edilir. "Arvad əziz məxluqdur" məqaləsində qadının hamiləlik, doğuş, doğuşdansonrakı dövrlərdə çəkdiyi əziyyətləri sadalayır və qeyd edir ki, analıq o qədər yüksəkdir ki, biz kişilər buna nail olmağa layiq deyilik.

Çəmənzəminli hekayələrində erkən evliliyi, qohum evliliyini, görücü üsulu ilə evliliyi, təhsilsiz qızların həyatını, qadınların döyülməsini, məktəbdən yarımçıq ayrılıb ərə verilməsini, qız-qadınların hüquqsuzluğunu tənqid edirdi. Məsələn, o, "Qumarbazın arvadı" hekayəsində Sürəyyanın ərinin bivec və bacarıqsız olmasına baxmayaraq, onun qarşısında Sürəyyanın hüquqsuzluğundan, məcburi itaətkarlığından, döyülsə də, söyülsə də, bütün əşyaları qumarda uduzulsa da, cəsarətsiz olmağından bəhs edir. Sürəyyanın ilk uğursuzluğu onun ailəsi, sonra təhsilsizliyi və daha sonra isə qumarbaz əridir. Çəmənzəminli Sürəyyanın bu cür ərə itaət etməkdən başqa çıxış yolu olmadığını yazır: *"Müslimələrin səbrdən başqa əllərində bir silahları yoxdur. Bunlar üçün azadəlik, öz diriliyi yolunda mübarizə yaranmayıb, hamısı əsirdir, tərbiyəsizlik əsiri"* (Çəmənzəminli, 2005: 157).

"Namussuz" hekayəsində isə məktəbli Nigar zorla məktəbdən çıxarılaraq varlı olduğu üçün özündən 15 yaş böyük Məhəmmədbəyə ərə verilir (Çəmənzəminli, 2005: 213). Yaşadığı illər ərzində əri tərəfindən sayılmayan, bütün cehizi ərinin içkilərinə xərclənən, günlərlə evdə tək və ac qalıb ərinin yolunu gözləyən Nigarı bircə dəfə axtarmayan qardaşları Məhəmmədbəy öləndən sonra Nigarın Hüseynə ərə getmək istəyini namussuzluq adlandırıb onu bacılıqdan siləcəklərini, anaları isə övladlıqdan çıxaracağını bəyan edir. Hekayədən görünür ki, təhsilsiz və avam ailədə böyümüş qızın heç bir hüququ yoxdur.

Y. V. Çəmənzəminli "Toy" (Çəmənzəminli, 2005: 72), "Doqquz ay keçmiş" (Çəmənzəminli, 2005: 183) hekayələrində də qızların razılığı olmadan erkən evliliyi, ərləri tərəfindən döyülməyin, hətta öldürülməyin belə cəmiyyətdə adi qəbul ediləbilinəcəyi, qızı itaətsizlikdə günahlandırıb, səhv iş tutmaqda ittiham olunacağı, ərlərə istənilən hallarda dəstək veriləcəyi cəmiyyəti tənqid edir.

"Üç gecə" (Çəmənzəminli, 2005: 187) hekayəsində Y. V. Çəmənzəminli Azərbaycan qızının başına gələcək faciəni, insanların elmdən, təhsildən, qayda-qanundan uzaq olmasını, lazımsız adətlərin quluna çevrilməsini şiddətlə tənqid edir. Rusiyada təhsil alan Qasım kəndə gələndə anası onu 15 yaşlı dayısı qızı ilə evləndirmək istəyir. Qasım təhsilli olsa da, anasının təsirinə düşür: *"Müsəlman arvadını tanıyırsan: cəmi fikir və zikri oğul evləndirib, qız ərə verməkdir"* (Çəmənzəminli, 2005: 187). O, kortəbii adətləri, döşəyin üzərinə tikilmiş ağı, qapının arxasında gözləyən yengələri, qadınların özlərinin də həyasızcasına məhz onları təhqir edən adətləri qoruma çabalarını, "el nə deyər" qınağının hamı üçün sloqan olduğunu Qasımın anası ilə olan dialoqunda təsvir edir: *"Anam başladı mənə işarə ilə qandırmağa. Yenə el gəldi ortalığa: "Bala, – dedi, – axır yengələr də intizardılar; bugünün işini sabaha qoyma!"* (Çəmənzəminli, 2005: 188). Qasım təhsil almışdı, yaşca da Matandan böyük idi, həm də artıq anlayırdı, Matanla onun arasında ortaq bir cəhət yoxdur, evləndiyi üçün də peşman idi. Beləliklə, anasının yalvarışlarına baxmayaraq, rus qızlarının yanına, Moskvaya geri dönür.

"Ana və analıq" əsərində, müəllifin fikrincə, bu vaxta qədər qadınların vəziyyəti haqqında yazdıqları çox azdır. O düşünür ki, qadınların keşməkeşli və zülmlü vəziyyəti haqqında kitablar yazmaq lazımdır, ta o vaxta kimi ki, Azərbaycan qadınına da Avropa qadınları kimi ixtiyar verilsin. Ümumiyyətlə, Çəmənzəminli "qadının ağlı kişidən azdır" ifadəsini qəbul etmir (Çəmənzəminli, 2005: 422). O, qadınlara uyğun mühit, təhsil və şərait yaratmağın tərəfdarıdır, belə olarsa, bütün dünyada olduğu kimi, həkim, alim, rəssam, müəllim, professor və digər peşə sahibi olan, hətta bir çox işlərdə kişilərə yol göstərə bilən qadınlar olacağına inanır. Yazıçı tərəqqi edə bilməməyin səbəbini də qadınların ixtiyarsızlığında görür.

Dəfələrlə qadını elmə, təhsilə səsləyən yazıçı yazır: *"Oxumamış və avam arvadların nə analığa, nə evdarlığa və zövcəliyə qabiliyyətləri yoxdur. Elmsiz arvad ərinə həmişə yad olar, əri bacardıqca evdən uzaq dolanar. Çünki əri evdə saxlamağa qabiliyyət gərəkdir. Ər ki arvaddan nə mərifətli söz eşitmədi, nə qanacaqlı hərəkət görmədi, o ər ömrünü qumarxanalarda, çayçı dükanında, klublarda və əcnəbilər məclisində keçirər"* (Çəmənzəminli, 2005: 426).

Y. V. Çəmənzəminlinin təsvir etdiyi qadınların heç biri öz bədbəxtliyinin səbəbini aydın dərk edə bilmir, hüquq və heysiyyətinin ayaqlar altına salınmasına qarşı etiraz etməyi ağlına belə gətirmir. Onlar fəlakətlərinin səbəbini bəxt və taledə, qəzavü-qədərdə görürlər. Bu qadınlar yaxşı kişi, ləyaqətli ər haqqında çox ibtidai, sadəlövh təsəvvürə malikdirlər: *"Əlinə düşəni bozbaşa verirdi, yeyirdik. Döyəndə də özgə kişilər kimi çox döyməzdi, qabırğalarıma, qarnıma beş-altı təpik salandan sonra ürəyi soyuyurdu"* (Çəmənzəminli, 2005: 283).

Əgər fikir versək, onun qadınlara həsr etdiyi hekayələrinin əksəriyyətinin finalı qanlı göz yaşları ilə tamamlanır. Çəmənzəminlinin məharəti ondadır ki, bu göz yaşlarının səbəbini güclü realizm qüdrəti ilə açıb göstərə bilir. Cahil qadınlar müti quldur, onların yeganə təsəllisi göz yaşlarıdır.

## 3. Həmidə Cavanşirin fəaliyyətində və yaradıcılığında maarifçi qadın modeli

Y. V. Çəmənzəminlinin bir neçə dəfə adını çəkdiyi H. Məmmədquluzadə qadınların ilk çalışdığı sənaye müəssisəsinin qurucusudur. O öz vəsaiti hesabına tibb məntəqəsi, toxuculuq emalatxanası və məktəb açdırıb, özü də orada dərs deyib. 1919-cu ildə Tiflisdən xüsusi dəzgahlar gətizdirib Şuşada toxuculuq yeri açır, qadınları işə cəlb edir. Həmidə xanım M. Bağırov tərəfindən Yazıçılar İttifaqına dəvət alır və "Xatirələrim" adlı memuar əsərini yazmağa başlayır. M. Bağırov özünün də yer almasını istədiyi üçün Həmidə xanıma sifariş verir ki, Qarabağda olan inqilabi hərəkatları qələmə alsın. Həmidə xanım isə öz istədiyi kimi yazdığı üçün ona irad bildiriləndə deyir ki, mən görmədiklərimi yaza bilmərəm. Repressiyaların tüğyan etdiyi bir dövrdə, kişilərin belə təzyiqlərə tab gətirmədiyi bir mühitdə Həmidə xanımın bu cəsarətli addımı təqdirəlayiqdir. Bu etirazdan sonra o özü və övladları təzyiqlərə və təqiblərə məruz qalır, bütün imtiyazları əlindən alınır, oğlu işdən çıxarılır. Lakin biz bütün bu zülmün fonunda Azərbaycan qadınının əzmkarlığını, iradəsini, tarix və millət qarşısındakı məsuliyyətini görürük.

Həmidə xanıma bu hünəri verən onu yetişdirən ailədir. O, "Xatirələrim" əsərində atası Əhməd bəy Cavanşirin qız və oğlan uşaqlarını bir-birindən ayırmadığını, onlara eyni tərbiyənin verilməli olduğunu da paylaşır. O yazır ki, atası həm ona, həm də qardaşına silah işlətməyi öyrədirdi. Əhməd bəy Cavanşir deyirdi: *"Qızları öz təbii haqlarından məhrum etmək, onları güclü sinfin əyləncəsi üçün kukla kimi yetişdirmək lazım deyil. Bütün haqlarından məhrum edilmiş belə qadınlar sonradan zəlil, dilsiz-ağılsız bir köləyə çevrilir"* (Cavanşir, 2012: 66). Əhməd bəyi müsəlman qadının taleyi, onun əziyyətləri çox düşündürürdü. O, qadını əzilmiş, hüquqları tanınmamış bir cəmiyyəti iflic hesab edirdi.

Həmidə xanımın təsvirlərindən aydın olur ki, Mirzə Cəlilin ideal qadın obrazı məhz dik, əzəmətli, savadlı qadındır (Cavanşir, 2012: 87). Elə bu xarakterlə də Mirzə Cəlil Həmidə xanım kimi azad, cəsarətli, savadlı və səriştəli xanıma biganə qala bilməzdi.

Həmidə xanımın M. Cəlillə ilk görüşündə müsəlman qadına olan zülmdən, onun acınacaqlı taleyindən söhbət düşəndə M. Cəlil deyir: *"Niyə siz ziyalı, müsəlman qadınları birləşib bir xeyriyyə cəmiyyəti yaratmırsız?"* (Cavanşir, 2012: 101). Beləliklə də, Həmidə

xanım, Tiflisdə yaşayan İsa Sultan Şaxtaxtlının dul həyat yoldaşı, təhsilli müsəlman qadın Sofiya xanım, M. F. Axundzadənin Tiflisdə yaşayan nəvəsi Mələksima xanım birləşərək qadın xeyriyyə cəmiyyəti yaradırlar. Sonralar Axundzadənin həyat yoldaşı Nisə xanım da bu cəmiyyətə qoşulur, Gövhər xanım Qacar xeyriyyə işlərində ona güvənə biləcəklərini deyir, Firidun bəy Köçərli və Əli xan Avarskinin də xanımlarını dəvət edirlər.

Həmidə xanımın bir müsəlman, Azərbaycan qadını olaraq həm ədəbi obrazı, bədii fəaliyyəti, həm də ictimai fiqur olaraq Azərbaycan qadınına və cəmiyyətinə xidməti əvəzsizdir. O, M. Cəlillə birlikdə müsəlman qadının maariflənməsinə xidmət edib, "Molla Nəsrəddin" jurnalının nəşrinə maddi dəstək verib.

### 4. C. Cabbarlı əsərlərində Şərq stereotiplərinə qarşı qoyulan qadın problemi

XX əsr Azərbaycan ədəbiyyatında qadın problemini ən çox işıqlandıran, qadına səhnə həyatı verən feminist yazıçı Cəfər Cabbarlı idi. Onun əsərlərinə, hekayələrinə fikir versək, bir çoxunun adı da qadın adıdır. Çünki onun məqsədi Azərbaycan qadınının azadlığı, təhsili, səlahiyyətlərinin artırılmasının təbliği idi. Cabbarlı qız-qadınların üzləşdikləri çətinlikləri vurğulayıb, onların zəiflikləri və əzilmələri ilə yanaşı, müti həyatdan çıxış yolunu təhsil olaraq təqdim edir.

C. Cabbarlı "Gülər" hekayəsini "Sevil" pyesinin səhnələşdirilməsi zamanı şəxsən özünün gəzib çəkilişə azərbaycanlı qız axtardığı zaman başına gələnlərdən təsirlənərək yazıb. Əvvəlcə Məryəmin evinə gedib atasından razılıq almaq istəyəndə söhbəti eşidən Gülər həvəslə razı olacağını bildirir. Gülərin atası yoxdur, onun nişanlısı hələ evlənməmiş Gülərin bütün haqlarına sahiblənərək, dolayı yolla bu işə razı olmayacağını bildirir. Görəndə ki, Gülər həvəslidir, razıdır, kobudcasına bütün sülaləsinin, qohum-əqrəbasının bu işə pis baxacaqlarını vurğulayır.

Bu, azərbaycanlı qadının faciəsidir ki, onun həyatı, uğurları və şəxsi maraqları üçün özündən öncə atası, qardaşı, nişanlısı, əri, qohum-əqrəbası, yeddi sülaləsi qərar verə, yol cıza bilər, özünün isə buna zərrə qədər ixtiyarı yoxdur. Kəskin patriarxal ənənələri qorumağa çalışan Gülərin nişanlısına kino işçisi onun nənəsi və sülaləsi haqqında bildirir: *"Yetmiş-həştad, çox yaşasa doxsan. O, artıq ölüdür, meyitdir. Gülər isə ancaq indi-indi yeni həyat üçün ayaq açır, siz isə onun yürüş yollarını meyitlərlə doldurmaq istəyirsiniz. ...sənin bu cəsədlərdən tikdiyin bu hasar bizim yüksəliş yolumuzu kəsə bilməz"* (Cabbarlı, 1970: 89). Yazıçının bu cümlələri bütün Azərbaycan qadınına oyanış mesajıdır. O, bu hekayə ilə öncəki dövr yazıçılar kimi, qadının təkcə bədbin taleyini, hüquqsuzluğunu göstərməklə kifayətlənmir, ona çıxış yolu verir, həyatın digər – işıqlı tərəfini də göstərir.

Onun "Gülzar" (Cabbarlı, 1970) hekayəsində isə bütün Azərbaycan cəmiyyətinin gender normaları, düşüncə tərzi, qadına olan tələbi və kişidən gözləntiləri əks olunur. Gülzar cəmiyyətin kök salmış adətlərinin qoruyucusudur, onun adı və namusu hər şeydən üstündür. Qardaşı deyir: *"Bacımın cehizi yoxsa da, su kimi duru, pak adı vardır"* (Cabbarlı, 1970: 50). Mənfur biri tərəfindən zorlanmaya məruz qalan Gülzarın illərlə qoruduğu heysiyyəti bir gecədə məhv olur. Bəli, məhz bakirəliyini itirmiş qız, səbəbindən asılı olmayaraq, cəmiyyətin qınaq obyektidir, ər də onu qəbul edə bilməz, çünki ərin də boynuna qeyrət yükünü məhz bu cəmiyyət yükləyib. Cəmiyyət kənardan seyrçi olaraq bir qızın məhv olmuş həyatını izləyə, bunu qəbul edə bilir. Qızı, qadını qınaq obyektinə çevirmək, məhvinə, hətta ölümünə göz yummaq əlindən tutub qaldırmaq və yarımçıq qalan həyatına bir yerdən davam etməsi üçün dəstək olmaqdan daha rahatdır.

Yazıçının "Dilbər" hekayəsinin baş qəhrəmanı Dilbərin böyük xəyalları var, o, nəinki təhsil almaq, hətta həkim olmaq, qoca və kasıb atasına dəstək olmaq niyyətindədir, atası da bu yolda qızına dəstək verir (Cabbarlı, 1970: 72). Buna baxmayaraq, atasının ölən atı və borclarına görə Dilbər təhsilini və xəyallarını yarımçıq qoyub ərə gedir. Döyən ər, çadraya bürüdülmüş həyat, ixtiyarsızlıq, itaətkarlıq bu hekayədə də aktuallığını qoruyur. Evlilikdən bir müddət sonra ən yaxın rəfiqəsini oxumuş, inkişaf etmiş görən Dilbərin içində sevinc və utancaqlıq hissi yaranır. Dilbər isə qayınanasının əzbərlətdiyi Yasin və mərsiyələrdən başqa bir şey bilmir. C. Cabbarlı bu hekayədə oxucunun, xüsusilə də qadınların önünə döyülməkdən, çadralanmaqdan, əzilməkdən kənarda olan alternativ həyatı göstərir. Qadınların çıxış yolu olduğunu göstərir; həyatın digər üzü – elmli və təhsilli, inkişaf edən qadın dini mövhumatın və cahilliyin qurbanı olan qadınla eyni zaman kəsiyində oxucuların önündədir! Məsələn, biz bu çıxış yolunu Y. V. Çəmənzəminlidə görmürük. C. Cabbarlı həm də yalnız dinə meyillənib "Quranda hər şey var" deyərək qızları təhsildən yayındıranları da qınayır (Cabbarlı, 1970: 72). Bu hekayədə Dilbər, T. Hardinin Tess obrazı kimi, atasının atı öldüyü və borclandığı üçün özünü qurban verir, sonda nəticəsi də Tess kimi acı sonluqla bitir. Tess edam edilir, Dilbər isə özünə qəsd edir.

C. Cabbarlının nəsr əsərlərində olduğu kimi, "Arvadlar deyirlər", "Hürriyyəti-nisvançılara protesto", "Kişilər deyirlər", "Qızlardan kişilərə protesto" kimi nəzm əsərlərində də qadın azadlığı, hüquqları, təhsilə çağırış var. Məsələn, "Hürriyyəti-nisvançılara protesto" (Cabbarlı, 2017) şeirində qadının oxumağından, təhsilli olacağından əksər kişilərin niyə qorxduğunu izah edir. Çünki kişilər öz əllərində olan gücü qadınlara vermək və ya onlarla bölüşmək istəmirlər. Qadınları daim itaət altında saxlamağın yolu onları heç özünü tanımamış, ayılmamış, arzu və istəklərini müəyyən edə bilməmiş körpə yaşlarından ərə vermək və cahil, kor kimi qapazaltı saxlamaqdır. Buna görə də onlar qorxur ki, qızlar təhsil alsa, 15 yaşlı qızı 60 yaşlı kişiyə zorla ərə vermək olmayacaq, hüquqlarını bilən qadın döyüləndə, söyüləndə buna qarşı çıxacaq, elmi şəriətdən ayırd edə biləcək. Elə buna görə də kişilər hakimiyyəti əldən vermək və paylaşmamaq üçün hürriyyəti qəbul etmək istəmirlər.

"Qızlardan kişilərə protesto" şeirində isə qadınlar qul kimi yaşamağa, zindan kimi evdə dörd divar arasında oturmağa, döyülüb-söyülməyə, azyaşlı qızların qocalara ərə verilməsinə etiraz edir və azadlığa can atırlar (Cabbarlı 2017).

"Vəfalı Səriyyə, yaxud göz yaşları içində gülüş", "Solğun çiçəklər", "Almaz", "Oqtay Eloğlu" və s. kimi pyeslərin müəllifi olan C. Cabbarlının gender tədqiqatları nəzərindən ən effektli əsəri "Sevil" pyesi hesab edilə bilər. 1928-ci ildə yazılan "Sevil" həm də Azərbaycan ədəbiyyatında ilk feminist əsər və Şərq qadınının azadlıq və inkişaf yolu üçün bir mayak hesab edilə bilər. Çünki Sevilin timsalında yazıçı passiv, müti, cahil, savadsız bir Azərbaycan qadınının bir ziyalıya qədər yüksələ biləcəyi inkişaf xəttini təsvir edib. Bu xətt, bu yol Azərbaycan qadını üçün ümiddir, inamdır. Nəzərə alaq ki, ingilis ədəbiyyatında feminizmin şah əsəri hesab edilən V. Vulfun "Şəxsi otaq" əsəri "Sevil"dən bir il sonra yazılmasına baxmayaraq, bütün dünyada gender tədqiqatları baxımından böyük önəm daşıyır. "Sevil" əsəri isə Azərbaycan və Şərq ədəbiyyatının feminist manifesti hesab edilə bilər. Qərbdə feminist üslubda yazılan əsərlər kimi, finalda Sevil öz ayaqları üzərində dayanmağı bacaran, kişidən iqtisadi asılılığı olmayan bir qadına çevrilir. Finaldakı xoşbəxt sonluq ənənəvi olaraq oxucunun gözlədiyi evlilik, Balaşla yenidən qovuşa bilmək xəyalları deyil, məhz bir qadının iqtisadi azadlığı və sırf özünə inamla təkbaşına qurduğu həyatdır. Bununla da kifayətlənməyən yazıçının "Sevil" pyesini 1928-ci ildə tamaşaya qoyması, çadrasını atan azərbaycanlı qızın səhnədə

təmsili nəinki Azərbaycan qadını, o cümlədən, Şərq qadınlarının azadlığı üçün açılan bir yol idi.

Sevil çadralı, təhsilsiz və kişini yer üzərində Allahın kölgəsi hesab edən müti bir qadındır. Onun baldızı Gülüş isə təhsilli və azad ruhlu qızdır, Sevilin gözünü açmağa təkan verir. Sevil çox safdır, bütün bədbəxtliyi Azərbaycanda qız olaraq doğulmağında görür: *"Çünki kişi evin sütunudur. Arvad nədir, oturub saman çuvalı kimi evin bir küncündə, nə ölüyə hay verir, nə diriyə pay. Ər ki var, Allahın kölgəsidir"* (Cabbarlı, 1968: 343, 345]. Sevil özünü dəyərsiz hesab etdiyi üçün Balaşın da gözündə bir dəyəri yoxdur. Balaş sevgilisi Dilbəri evinə gətirir və onunla evlənir. Hətta Dilbər əgər razılıq versə, Sevilin qiyamətədək səsini çıxarmayacağına əmin olduğu üçün onun da həmin evdə çuval kimi bir küncdə oturmasını təklif edir. Bu təklifə Dilbərin razılaşmaması da Sevilin inkişafına təkan verən nüansdır. Müti, cahil Sevil həyatın acı sınağı ilə sınanır. Gülüş ona qışqırır: *"Həyatın başgicəldən oyunlarına dayana bilməzsənsə – yıxıl, yaşamaq istəyirsənsə – qalx, yoxsa tapdanacaqsan"* (Cabbarlı, 1968: 376). Gülüş Sevilə başa salmaq istəyir ki, o öz haqqını yalnız özü tələb edə bilər, heç kəsdən mədəd ummadan özü bunu bacarmalıdır, ya da məhv olmalıdır. Balaşla son görüşündə o, çadrasını başından çıxarıb atır. Bu məqamdan sonrakı addım məhz Sevilin öz seçimidir, o, özünü öldürə də bilər, yaşamaq üçün fahişəlik də edə bilərdi. Lakin o, bütün Azərbaycan qadınına ümid verən təhsil yolunu seçir və ziyalıya çevrilərək "Azərbaycan qadınlığının azadlıq yolu" adlı kitab yazır. Cabbarlı bütün cəmiyyətə mesaj ötürməyə çalışır ki, qadının azadlığı üçün yalnız çadrasını açmaq yetərli deyil. Halbuki Avropa qadınları da çadrasız ikən yenə azad deyillər. Qadına ən başlıca iqtisadi azadlıq lazımdır (Cabbarlı, 1968: 393). Sevil, həmçinin, "namus"u yalnız qadınların daşıyacağı bir yük deyil, eynilə kişilərin də məsuliyyəti hesab edir. O düşünür ki, əgər kişi də pozğun həyat tərzi sürürsə, öz arvadı ola-ola başqa qadınla eşq yaşayırsa, o zaman onun da pozğun qadından fərqi yoxdur: *"Halbuki sən mənim gözümün qabağında bir qadının belindən qucmuşdun, mən də əlimdə su, qarşında titrəyirdim. Bilmək istəyirdim ki, sənin adın nə olur? Ad birdir. O zaman mənim nə düşünməyə beynim, nə deməyə dilim yox idi. İndi isə üzünə deyirəm: Fahişə!"* (Cabbarlı, 1968: 400).

C. Cabbarlının "Sevil"dən sonra yazdığı "Almaz" (Cabbarlı, 2005: 55) əsərində də mübariz, cəsarətli və təhsilli qadın obrazı təsvir edilib. Almaz təhsillidir, o, işləmək üçün ucqar kənd məktəbinə gəlib. Kənd əhalisinin paslanmış ənənələrinin davam etməsini, qadınları əzməsini, onlara imtiyaz verilməməsini və bütün bunların müqabilində susqun qalan qadınları görən Almaz psixoloji zorakılığa məruz qalsa da, onları maarifləndirməyə, gözlərini açmağa, hüquqlarını tanımağa çağırır. Təbii ki, Almazın bu hərəkəti mühafizəkarlığı ilə seçilən kənd əhlinin xoşuna gəlmir, Almazı hətta qadınları əxlaqsızlığa çəkməkdə ittiham edirlər. Pyesdəki Yaxşı obrazı məscidin mollası tərəfindən cinsi istismara məruz qalsa da, qorxusundan səsini çıxara bilmir. Bu isə onu göstərir ki, uzun illər din pərdəsi altında şəriət qaydaları ilə cəmiyyəti idarə edən mollalar qadınları həm fiziki, həm cinsi, həm psixoloji zorakılığa düçar etmiş, əllərindəki hakim gücü əldən verməmək, şəriət ənənələrini əldə saxlamaq üçün dindən istifadə edərək insanların beynini istədikləri kimi idarə etməyə çalışmışlar.

Bütün bu təhlillərimiz deməyə əsas verir ki, C. Cabbarlının əsərlərinin öncəki dövrün yazıçılarının əsərlərindən böyük fərqi var. Əvvəlki dövrün əsərlərində qızlar və qadınlar yalnız çadrada, çadradan çıxmaq uğrunda savaşda təsvir edilir, məktəbə və təhsilə səslənirdisə, C. Cabbarlının qadın obrazları təhsillidir, çadrasızdır, amma yenə də sosial bərabərsizlik və hüquqsuzluqdan əziyyət çəkirlər. Cabbarlı onları iqtisadı azadlığa səsləyir. M. Cəlilin, Y. V. Çəmənzəminlinin ata obrazlarından fərqli olaraq, C. Cabbarlının ata obrazlarının bir çoxu qızlarını təhsilli görmək istəyir.

## 5. H. Cavid yaradıcılığında qadın: ideal və reallıq arasında

XX əsr Azərbaycan ədəbiyyatında qadın əsarətinə qarşı çıxan H. Cavid göstərirdi ki, qadın əsarətini qanuniləşdirən, müdafiə edən həmişə din ehkamı, şəriət və müsəlmanlıq olmuşdur (Cavid, 2005).

Onun bədii əsərlərində qadın məsələsi öz aktuallığı və fərqliliyi ilə qabarıq şəkildə seçilir. Yazıçı ədəbi yaradıcılığa başladığı vaxtdan "Qadın", "Qız məktəbində", "Şərq qadını", "Vərəmli qız", "Pəmbə çarşaf", "Dəniz pərisi", "Get", "Qəmər", "Bir qızın son fəryadı" adlı şeirləri ilə qadın problemlərinə böyük maraq göstərmişdir.

O, "Şərq qadını" poemasında dini mövhumatın, feodal əxlaqın, cəhalətin hökm sürdüyü, köhnəlmiş adət-ənənələrin davam etdiyi bir cəmiyyətdə qadınların üzləşdiyi çətinlikləri təsvir etmişdir. O, qadınların iztirablarının kökünü onların hüquq və muxtariyyətini inkar edən hakim sosial norma və qaydalarla əlaqələndirirdi. Əsrlər boyu qadının qul, kölə kimi yaşamasını, əmtəə kimi bir saraydan digər saraya hədiyyə verilməsini, bəzən kişilərin əyləncəsinə çevrilməsini tənqid edir:

*Hər tərəfdən qara bir mevhumat*
*Pərdələr çəkdi həmən gözlərimə...*
*Qoparırkən fəryad*
*Etdi qanun ilə din istehza*
*Bənim öksüzcə qırıq sözlərimə* (Cavid, 2005: 141).

Sonda isə Şərq qadınının muxtariyyət əldə etdiyini və özünü azad səmalarda hiss etdiyini təsvir edir.

H. Cavidin "Maral" pyesi yeniliklə köhnəliyin mübarizəsi üzərində qurulub. Maral özündən yaşca çox böyük, amma zəngin Turxan bəyin arvadıdır. Turxan bəyin bütün düşüncəsi puldur, yeniliyə meyilli deyil, paslanmış adətlərin dəstəkçisidir. Nadir bəy isə yeniliyin tərənnümçüsüdür. Onların şəriət, qadınlar, çadra haqqında olan dialoqunda da bunu görmək mümkündür. Turxan bəy çadrasız gəzən qızlara qarşıdır, bunu şəriətə zidd hesab edir. Nadir bəy isə şəriəti xalqı təhlükəli uçurumlara yuvarlayan bir çürük qanun hesab edir: *"Sağlam tərbiyəyə, sarsılmaz bir əxlaqa malik olan xanımların açıq gəzməsində heç bir məhzur görəmiyorum... Öylə ya, tariximizin ən şanlı qəhrəmanlarını, böyük dahilərini vücuda gətirən əcəba qadınlar deyil də, kimlərdir?"* (Cavid, 2005: 93). Turxan bəy isə sərbəst qadının fəsadlar törədəcəyinə inanır. Elə buna görə də oğlu Cəmilin sevdiyi savadlı, başıaçıq Humayı qəbul edə bilmir. Turxan bəyin arvadı, 16 yaşlı Maral isə Aslan bəyə aşiq olur, Aslan bəy Marala qaçmağı təklif edir. Əvvəl razılaşan Maral cəmiyyətin qınağından, namus və iffət yükündən çəkinərək tərəddüd edir. Lakin Turxan bəy bu münasibəti anlayan kimi Maralı öldürür, Aslan bəy isə Turxan bəyi öldürür. Maralın faciəsi ər evində var-dövlət içində dustaq olması, gücsüzlüyü, təhsilsizliyi, azad ola bilməməsidir. Yazıçı Maral və Aslanı qovuşdurmasa da, hadisələrin digər fonunda olan təhsilli gənclərin – Cəmil və Humayın qovuşacağı ümidini verir.

H. Cavid "Afət" dramında da qadını əzən mühiti, onu çirkaba boyayan, sonda isə ölümə yuvarlayan cəmiyyəti tənqid edir. Afət də cəmiyyətin qurbanıdır. Afət onu yalan vədlərlə aldadan, ərinin ölümünə vəsilə olan doktor Qaratayın Altunsaçı sevdiyini öyrənir, lakin bunu qəbul edə bilmir. O, doktora sual edir ki, sən gündə bir bəyəndiyin qızla görüşəndə günah deyil, amma mənim əlimdən bir bəy öpərsə, niyə günah hesab olunur? Doktor isə cavabında onun qadın olduğunu deyir, sadəcə qadın. Bütün günahların, məzəmmətlərin, yüklərin daşıyıcısı qadın. *"Ah, zavallı qadınlar! Bütün mühit*

*və qanunlar onlara düşman, bütün təbiət və kainat düşman! Çünki zəiflər, onunçün də haqsızlar. Fəqət erkəklər həp məsum! Bütün sapqınlıqları, bütün azğınlıqları ilə məsum! Çünki bütün qanunları yapan onlar!"* (Cavid, 2005: 123).

H. Cavid qadınları öz hüquqlarını fəal şəkildə müdafiə etməyə çağıraraq bərabərliyə nail olmağın təhsil və tərəqqidən keçdiyini vurğulayırdı. O, mütərəqqi ideyaların tərəfdarı kimi inanırdı ki, təhsil və bilik qadınlara cəmiyyətə töhfə verən şəxslər olmaq imkanı yaradacaq. O, qadının gözəlliyini zahiri görkəm və ya var-dövlət kimi səthi xüsusiyyətlərdə deyil, "Qız məktəbi" şeirində ifadə etdiyi kimi, onun təhsilində, biliyində, intellektual yüksəlişində görürdü.

## Nəticə

Aparılan təhlillər göstərir ki, XX əsr Azərbaycan ədəbiyyatında qadın obrazı köklü şəkildə transformasiyaya uğrayaraq, ənənəvi, passiv və idealizə olunmuş modeldən fəal, düşünən və sosial proseslərdə iştirak edən yeni tipə çevrilmişdir. Bu dəyişikliklər təkcə bədii-estetik yenilik kimi deyil, həm də cəmiyyətin sosial və ideoloji inkişafının göstəricisi kimi çıxış edir. Qadının təhsil alması, öz hüquqlarını dərk və fərdi seçim etməsi kimi keyfiyyətlər ədəbiyyatda yeni qadın kimliyinin əsas xüsusiyyətləri kimi təqdim olunmuşdur.

Eyni zamanda, müəyyən edilmişdir ki, bu transformasiya prosesi ənənədən tam qopma şəklində deyil, Şərq ədəbi-mədəni irsi ilə qarşılıqlı əlaqə və dialoq əsasında baş vermişdir. Klassik Şərq ədəbiyyatında qadına verilən mənəvi dəyərlər, etik prinsiplər və simvolik məna qatları XX əsr yazıçıları tərəfindən yeni məzmunla zənginləşdirilmişdir. Beləliklə, qadın obrazı həm milli-mədəni köklərə bağlılığını qorumuş, həm də müasir dövrün tələblərinə uyğun şəkildə yenidən formalaşdırılmışdır.

Y. V. Çəmənzəminli, C. Cabbarlı, H. Cavid və Həmidə Cavanşirin yaradıcılığı əsasında aparılan təhlil göstərir ki, bu müəlliflər qadın obrazını fərqli aspektlərdən təqdim etsələr də, onları birləşdirən əsas cəhət qadının şəxsiyyət kimi təsdiqi və cəmiyyətdə aktiv rolunun vurğulanmasıdır. Bu baxımdan XX əsr Azərbaycan ədəbiyyatında yeni qadın obrazı ənənə və yenilik sintezinin nəticəsi kimi meydana çıxaraq milli ədəbiyyatın inkişafında mühüm mərhələ təşkil edir və gələcək tədqiqatlar üçün də geniş perspektivlər açır.

## QAYNAQLAR:


1. Cabbarlı, C. (1968). *Əsərləri* (3 cilddə, I cild). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.
2. Cabbarlı, C. (2005). *Əsərləri* (4 cilddə, III cild). Bakı: Şərq-Qərb.
3. Cabbarlı, C. (1970). *Hekayələr. Dilara*. Bakı: Gənclik.
4. Cabbarlı, C. (2017, 23 may). *Hürriyəti-Nisvançılara protesto*. https://az.wikisource.org/wiki/H%C3%BCrriy%C9%99ti-Nisvan%C3%A7%C4%B1lara_protesto
5. Cabbarlı, C. (2017, 25 may). *Qızlardan kişilərə protesto*. https://az.wikisource.org/wiki/Q%C4%B1zlardan_ki%C5%9Fil%C9%99r%C9%99_protesto
6. Cavanşir, H. (2012). *Xatirələrim* (M. Vəzir, Trans., 2-ci nəşr). Bakı: Apostroff MMC.
7. Cavid, H. (2005). *Əsərləri* (5 cilddə, I cild). Bakı: Lider nəşriyyatı.
8. Cavid, H. (2005). *Əsərləri* (5 cilddə, II cild). Bakı: Lider nəşriyyatı.
9. Cavid, H. (2005). *Əsərləri* (5 cilddə, III cild). Bakı: Lider nəşriyyatı.

10. Cəfərli, Y. (2014, 10 Aprel). Romantizmdən realizmə, Molla Pənah Vaqifin yaradıcılığına yeni baxış. *Olaylar*.
http://www.anl.az/down/meqale/olaylar/2014/aprel/361718.htm
11. Çəmənzəminli, Y. V. (1913). *Arvadlarımızın halı*. Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi.
12. Çəmənzəminli, Y. V. (2017). *Biblioqrafiya*. Bakı.
13. Çəmənzəminli, Y. V. (2005). *Əsərləri* (3 cilddə, I cild). Bakı: Avrasiya-Press.
14. Çəmənzəminli, Y. V. (2005). *Əsərləri* (3 cilddə, III cild). Bakı: Avrasiya-Press.
15. Çəmənzəminli, Y. V. (1913). *Qanlı göz yaşları: Arvadlarımızın məişətindən*. Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi.

## *New female images in 20th century Azerbaijani literature and their relationship with Eastern literary tradition*

***VUSALA AGHABEYLI*** [**]

***Summary***

*This article examines the new female images formed in 20th century Azerbaijani literature and their ideological and aesthetic connections with the Eastern literary tradition. The study analyzes the transformation of the female image from the idealized and passive model found in classical Eastern literature into a new type characterized by social activity, independent thinking, and active participation in social life in the 20th century. This transformation of female identity is explained within the context of enlightenment ideas, socio-political changes, and Western influences, while also highlighting its connection to national and cultural roots.*

*The article comparatively explores the artistic representation of female images based on the works of Y. V. Chamanzaminli, J. Jabbarli, H. Javid, and Hamida Javanshir. Particular attention is paid to issues such as women's freedom, education, moral choice, and the formation of personality. The research concludes that the new female image in 20th century Azerbaijani literature developed not through a complete break from tradition, but through a dialogue with Eastern literary heritage, forming a synthesis of tradition and modernity. In this regard, the article provides an opportunity to evaluate the evolution of the female image in both national and universal contexts.*

**Keywords:** *female image, 20th century Azerbaijani literature, Eastern literary tradition, women's freedom and identity, gender studies*

## *Новые женские образы в азербайджанской литературе XX века и их связь с восточной литературной традицией*

***ВЮСАЛА АГАБЕЙЛИ*** [***]

***Резюме***

*В данной статье исследуются новые женские образы, сформировавшиеся в азербайджанской литературе XX века, а также их идейно-эстетические связи с восточной литературной традицией. Анализируется трансформация женского образа от идеализированной и пассивной модели, характерной для классической восточной литературы, к новому типу, отличающемуся социальной активностью, самостоятельным мышлением и активным участием в общественной жизни. Данная транс-*

[**] PhD in philology, Associate professor; Azerbaijan University of Languages; vusale.agabeyli@gmail.com; ORCID ID: https://orcid.org/0000-0003-1560-028X
[***] Кандидат филологических наук, доцент; Азербайджанский университет языков; vusale.agabeyli@gmail.com; ORCID ID: https://orcid.org/0000-0003-1560-028X

*формация женской идентичности рассматривается в контексте просветительских идей, общественно-политических изменений и влияния Запада, а также подчеркивается её связь с национально-культурными корнями.*

*В статье на основе творчества Ю. В. Чеманземинли, Дж. Джаббарлы, Г. Джавида и Хамиды Джаваншир проводится сравнительный анализ художественного воплощения женских образов. Особое внимание уделяется вопросам свободы женщины, образования, нравственного выбора и формирования личности. В результате исследования установлено, что новый женский образ в азербайджанской литературе XX века сформировался не в результате полного разрыва с традицией, а в процессе диалога с восточным литературным наследием, представляя собой синтез традиции и новаторства. В этом контексте статья позволяет оценить эволюцию женского образа как в национальном, так и в универсальном аспектах.*

**Ключевые слова:** *женский образ, азербайджанская литература XX века, восточная литературная традиция, свобода и идентичность женщины, гендерные исследования.*

| | |
|---|---|
| **Redaksiyaya daxil olma tarixi:** | **24.04.2024** |
| **Çapa qəbul tarixi:** | **12.08.2024** |
| **Çap olunma tarixi:** | **22.10.2024** |